# Ad günündə şəhadətə qovuşan zabit

**Vətənimizin ərazi bütövlüyünün bərpasında, dədə-baba torpaqlarımızın 30 illik erməni işğalından azad edilməsində xidməti olan igidlərimizdən biri də Ruslan Qəhrəmanovdur.**



Azərbaycan Milli Ordusunun zabiti Ruslan Mehman oğlu Qəhrəmanov 1988-ci il oktyabrın 6-da Almaniya Respublikasının Maqdeburq şəhərində hərbçi ailəsində dünyaya göz açıb. Həmin ölkədə hərbi xidmətdə olan atası 1990-cı ildə Azərbaycanın başı üzərində qara buludlar dolaşanda doğma yurdu Şəmkirə qayıdıb. Az müddətdən sonra Gəncədəki "N" saylı hərbi hissədə xidmətə başlayıb.

Xidmətdə olarkən o, Goranboy və Daşkəsən, Gədəbəy, Tovuz və Qazaxın Ermənistanla həmsərhəd ərazilərinə, habelə Qarabağda Bərdə və Tərtər rayonlarında erməni quldur birləşmələrinin qəfil hücumlarının qarşısının alınmasında fəal iştirak edir. Mehman 1992-ci ilin oktyabrında döyüşlərin birində ağır yaralanır. Onda Ruslan dörd yaşında idi. O, böyüdükcə atasını əlil edənləri xatırlayır, soydaşlarımıza qarşı olan erməni vəhşiliklərindən xəbər tutduqca qəlbində bu vandallara qarşı nifrət və qisas hissi baş qaldırırdı. Yaxınlarının dediyinə görə elə bu səbəbdən Ruslan hərbçi olmaq, atasının peşə və döyüş yolunu davam etdirmək fikrinə düşür. Bu istəklə o, 2004-cü ildə Bakıdakı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olur. 2007-ci ildə liseyi müvəffəqiyyətlə bitirdikdən sonra təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbdə davam etdirir. Daha sonra Təlim-Tədris Mərkəzində kurs keçir. 2012-ci ildə "N" saylı hərbi hissədə xüsusi təyinatlı qüvvələrdə xidmətə başlayır. Bundan dörd il sonra gənc zabit 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olur, hücum əməliyyatlarının uğurlu alınmasında böyük şücaətlər göstərir.

Ruslanın ən böyük arzusu Qarabağın, eləcə də respublikamızın sərhədyanı bölgələrində erməni işğalı altında olan torpaqlarımızın azad olunması idi. O, İkinci Qarabağ savaşında döyüş əməliyyatlarının hazırlanmasında fəal iştirak etmişdir. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində göstərdiyi şücaətlər isə dillər əzbəri olmuşdur. Zabit yoldaşlarının dediyinə görə, tez-tez ön xətdə olur, tapşırıq əməliyyatlarını nəzərdən keçirirdi. Yaralı əsgərlərə xüsusi diqqət göstərirdi. Hətta döyüşlərin beş addımlığında güllənin yağış kimi yağdığı şiddətli nöqtələrə gedib yaralılara yardım edir, şəhid olanları çiyninə alıb arxaya, təhlükəsiz əraziyə çıxarırdı.

Onun qardaşına göndərdiyi "Mən hər şeyə hazıram. Şəhid olsam, ağlamayın, fəxrlə "Vətən sağ olsun!" deyin. Səbirsizliklə gözləyirəm gecənin qaranlığında Kəlbəcərə girməyi" mesajı indi çox insanın mobil telefonunun yaddaşındadır.

Vətənin azadlığını canından çox sevən Ruslan 32 yaşının tamamına bir gün qalmış - oktyabrın 4-dən 5-nə keçən gecə Cəbrayıl uğrunda gedən döyüşdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlmişdi. Ad günündə Şəmkirin Xuluf kəndində dəfn olunan Ruslan Qəhrəmanov komandanlıq tərəfindən dəfələrlə fəxri fərmana və medallara layiq görülmüşdür.

Kapitan Ruslan Qəhrəmanov şəhadətindən sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

R.Qəhrəmanov ailəli idi, iki qızı və ölümündən 10 gün əvvəl dünyaya göz açmış oğul övladı doğmalarına yadigardır. Şəhidin doğum və anım günündə, bayramlarda rayon və kənd ictimaiyyətinin nümayəndələri, məktəblilər, döyüşçü yoldaşları, ailə üzvləri və yaxınları vətənpərvər igidlə qürur duyduqlarını bildirərək onun məzarını ehtiramla ziyarət edirlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 26 fevral (№43).- S.15.